*AMEA Filologiya və sənətşünaslıq, 2024, № 1* *ISSN 2663-4368*
*Səhifə: 37-44* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2024.1.37*

# Qulam Məmmədli və "Molla Nəsrəddin" jurnalı

**Gülbəniz Babayeva**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: gulbeniz-babayeva@mail.ru

**Annotasiya.** Məqalədə görkəmli salnaməçi alim, jurnalist, teatrşünas, publisist Qulam Məmmədlinin salnaməçilik fəaliyyəti tədqiqata cəlb olunur**.** Azərbaycan xalqının ədəbi fikir tarixinə salnaməçi alim kimi daxil olan Qulam Məmmədlinin uzun illər apardığı səmərəli və gərgin axtarışların nəticəsində topladığı zəngin materiallar, tarixi sənədlər əsasında qələmə aldığı, ərsəyə gətirdiyi, böyük zəhmət, dərin məsuliyyət hissi və yüksək şövqlə yaratdığı "Molla Nəsrəddin" salnaməsi əsas tədqiqat predmetinə çevrilir. Qulam Məmmədlinin 192 məxəzdən topladığı maraqlı materiallar – Cəlil Məmmədquluzadənin həyat və fəaliyyəti, Azərbaycan ictimai fikrinin formalaşmasındakı xidmətləri, onun redaktorluğu ilə nəşr olunan "Molla Nəsrəddin" jurnalının yaranması, ədəbiyyat, mətbuat tarixindəki rolu, əsas müəllifləri, çoxsaylı müxbirləri və beynəlxalq aləmdə geniş əks-sədaya səbəb olması kimi faktlar barədə zəngin məlumat verilir. Bununla yanaşı, Qulam Məmmədlinin Azərbaycan ədəbiyyatı və mədəniyyətinin inkişafında böyük xidmətləri olan şəxsiyyətlərlə və onların geniş fəaliyyəti ilə bağlı yaratdığı "Hüseyn Ərəblinski" (1967, 292 s.), "Cahangir Zeynalov" (1968, 172s.),"Azərbaycan teatrının salnaməsi" (birinci hissə. 1974, 584 s., ikinci hissə 1983, 300 s.), "Cavid ömrü boyu" (1982, 298 s.), "Üzeyir Hacıbəyov" (1983, 550 s.), "Abbas Mirzə Şərifzadə" (1985, 242 s.), "Nəriman Nərimanov" (1987, 358 s.) adlı irihəcmli və fundamental tədqiqatlarından da söhbət açılır.
**Açar sözlər:** "Molla Nəsrəddin" jurnalı, Qulam Məmmədli, Cəlil Məmmədquluzadə, Mirzəli Möcüz, Üzeyir bəy Hacıbəyli, Əziz Mirəhmədov, İsa Həbibbəyli, salnamə, gizli imza

**Məqalə tarixçəsi:** göndərilib – 07.02.2024; qəbul edilib – 16.02.2024

# Gulam Mammadli and the magazine "Molla Nasraddin"

**Gulbeniz Babayeva**
Doctor of Philosophy in Philology, Associate professor
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: gulbeniz-babayeva@mail.ru

**Abstract.** In the article is studied chronicling activity of Gulam Mammadli, chronicler scientist, journalist, theater scholar and publicist. Gulam Mammadli entered the history of literary thought of Azerbaijani people as a scholar-chronicler. The chronicle "Molla Nasraddin" that he wrote based on the materials and historical documents he collected as a result of long years of productive and intensive research, and created with great effort and deep responsibility became the subject of research. Valuable information is given in the article about interesting materials collected from 192 sources – life and activity of Jalil Mammadguluzade, services in the formation of the public opinion of Azerbaijan, creation of a magazine edited by him, his role in the literature, press history, its main

authors, numerous reporter and international recognition. In addition to it, in the article is talked about the extensive and fundamental researches such as “Huseyn Arablinski” (1967, 292 p.), “Jahangir Zeynalov” (1968, 172 p.), “Chronicle of Azerbaijani Theatre” (First part. 1974, 584 p., second part, 1983. 300 p.), “Javid throughout his life” (1982, 298 p.), “Uzeyir Hajibeyov” (1983, 550 p.), “Abbas Mirza Sharifzade” (1985, 242 p.), “Nariman Narimanov” (1987, 358 p.) created by Gulam Mammdli about personalities and their activities who have made great contributions to the development of Azerbaijani literature and culture.

**Keywords:** “Molla Nasraddin” magazine, Gulam Mammadli, Jalil Mammadguluzade, Mirzali Mojuz, Uzeyir bey Hajibeyli, Aziz Mirahmadov, Isa Habibbeyli, chronicle, secret signature

**Article history:** received – 07.02.2024; accepted − 16.02.2024

## Giriş / *Introduction*

Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixində müstəsna xidmətləri olan Qulam Məmmədli jurnalist, teatrşünas, publisist, milli salnaməçiliyin banisi kimi böyük yaradıcılıq yolu keçmişdir. Qulam Məmmədlinin yaradıcılığının mühüm bir hissəsi “Molla Nəsrəddin” jurnalı ilə bağlıdır. O, jurnalda yüksək peşəkarlıqla mürəttiblik fəaliyyəti ilə məşğul olmuş, “Molla Nəsrəddin” satirik orqanının redaktoru Cəlil Məmmədquluzadə və mollanəsrəddinçi ədiblərin bir çoxu ilə səmimi dostluq və əməkdaşlıq münasibətləri qurmuşdur. Jurnalın yaradıcıları ilə sıx ünsiyyəti, qazandığı təcrübə, böyük ədəbi məktəbin əhatəsində olması sonralar “Molla Nəsrəddin” kimi monumental və möhtəşəm bir salnamənin yaranmasına stimul vermişdir. Qulam Məmmədli böyük realist ədibimiz Cəlil Məmmədquluzadənin 100 illik yubileyi münasibəti ilə salnamə yaratmağı qarşısına məqsəd qoymuş və 1966-cı ildə bu fundamental kitab işıq üzü görmüşdür.

## Əsas hissə / *Main Part*

Azərbaycan xalqının ədəbi fikir tarixinə salnaməçi alim kimi daxil olan Qulam Məmmədlinin böyük zəhmət, dərin məsuliyyət hissi və yüksək şövqlə yaratdığı “Molla Nəsrəddin” (1966, 564 s., 1984, 520 s., 2009, 518 s.),“Hüseyn Ərəblinski” (1967, 292 s.), “Cahangir Zeynalov” (1968, 172 s.),“Azərbaycan teatrının salnaməsi” (birinci hissə 1974, 584 s., ikinci hissə 1983, 300 s.), “Cavid ömrü boyu” (1982, 298 s.), “Üzeyir Hacıbəyov” (1983, 550 s.), “Abbas Mirzə Şərifzadə” (1985, 242 s.), “Nəriman Nərimanov” (1987, 358 s.) adlı irihəcmli və fundamental tədqiqatları salnaməçilik tariximizin ən dəyərli nümunələri kimi xalqımızın əvəzsiz söz abidəsinə çevrilib.

Qulam Məmmədlidə salnamə yaratmaq ideyası, onu milli-mənəvi dəyərə çevirərək gələcək nəsillərə ərməğan etmək təşəbbüsü məhz “Molla Nəsrəddin” jurnalı ilə, onun redaktoru Cəlil Məmmədquluzadə və mollanəsrəddinçi ədiblərlə sıx ünsiyyətindən sonra formalaşmışdır. Professor Asif Rüstəmli böyük salnaməçi alimin Cəlil Məmmədquluzadə ilə görüşündən, “Molla Nəsrəddin” jurnalındakı fəaliyyətindən bəhs edərək yazır: “Qulam Məmmədli ilk dəfə 1923-cü il iyun ayının əvvəllərində publisist Yaqub Nəsirli ilə Aşqabaddan Bakıya gəlir. Burada ilk getdikləri yer – “Yeni yol” qəzetinin redaksiyası, ilk görüşdükləri şəxs, baş redaktor Cəlil Məmmədquluzadə olur. Mirzə Cəlilin xeyirxahlığı sayəsində Qulam Məmmədli 8 iyun 1923-cü ildən “Kommunist” qəzetinin mürəttibi işinə qəbul edilir. Bir müddət sonra isə “Molla Nəsrəddin” jurnalına da mürəttiblik edir. Peşəsi ilə əlaqədar o, burada Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi, Cəfər Cabbarlı, Seyid Hüseyn, Məmmədəli Sidqi, Nemət Bəsir, Əfrasiyab Bədəlbəyli və başqaları ilə yaxından tanış olur, dostluq edir” [9, s.206].

Doğrudur, gizli imzaların toplanması Novruz Ağayevin təşəbbüsü olmuşdur. Onun ərəb əlifbası ilə yazdığı və bir dəftərdən ibarət əlyaz-

ması [1] "Başlanğıc" adlı ön söz və üç hissədən ibarətdir. Mirzəbala Məhəmmədzadənin 1922-ci ildə çap etdirdiyi "Azərbaycan türk mətbuatı" [3] kitabını göz önünə almaqla, Novruz Ağayevi bu sahədə fəaliyyət göstərən ilk cığırdaş hesab etmək olar. O, XIX əsrin sonu, XX əsrin əvvəllərində dövri mətbuatda çıxış edən 110 şair, yazıçı və ictimai xadimə məxsus olan 450-yə qədər gizli imzanı toplayaraq bir əlyazmasında əks etdirmişdir. Sonralar Mərziyə Paşayeva Əlyazmalar İnstitutunda mühafizə olunan şəxsi arxivlərdən "Molla Nəsrəddin" jurnalının 61 yazarına məxsus olan 187 gizli imzanı toplamışdır [8]. Bunlar imzaların toplanması istiqamətində ilkin təşəbbüs kimi diqqətəlayiq olsa da, lakin gizli imzaların araşdırılması, toplanması və fundamental şəkildə nəşri məhz Qulam Məmmədliyə məxsusdur. Mətnşünas alim Elmira Qasımova bu fədakar tədqiqatçının misilsiz əməyini yüksək dəyərləndirərək yazır: "Qulam Məmmədlinin mətbuat xadimlərinin 4000-ə yaxın gizli imzalarını özündə cəmləyən" İmzalar" kitabı bu sahədə elmi ictimaiyyətə təqdim olunan ilk qiymətli lüğətdir. Novruz Ağayevin qeydə aldığı və müəllifini göstərdiyi gizli imzalar içərisində "bəzi yanlışlıqlara da rast gələn" Q.Məmmədli onun gördüyü işi yüksək qiymətləndirmiş və ondan yararlandığını qeyd etmişdir. Həm Novruz Ağayev, həm də Qulam Məmmədli imzaların bir yerə toplanılması və müəlliflərinin göstərilməsində müxtəlif yazıçıların şəxsi arxivində olan elmi-biblioqrafik sənədli məxəzlərə istinad etməklə yanaşı, müasirlərinin xatirə və şifahi deyimlərinə, yaddaş, bəzi məqamlarda isə güman, ehtimal və fərziyyələrə əsaslandıqları da məlumdur" [7, s.5]. Görkəmli jurnalist və tədqiqatçı Qulam Məmmədli tərəfindən hazırlanan salnamə 1866-1932-ci illəri əhatə edir. 15 illik gərgin axtarışların nəticəsi kimi ərsəyə gələn salnamə üç dəfə – 1966, 1984 və 2009-cu illərdə çapdan çıxmışdır. İki nəşrin redaktoru Azərbaycan EA-nın müxbir üzvü Əziz Mirəhmədov, üçüncü nəşrin tərtibçisi və ön sözün müəllifi akademik İsa Həbibbəylidir. Salnamənin sonuncu nəşrinə yeni arxiv materialları, qiymətli sənədlər və geniş ictimaiyyətə məlum olmayan faktlar əlavə edən akademik İsa Həbibbəyli mənbələrin sayını 219-a çatdırmışdır.

Qulam Məmmədlinin 192 məxəzdən topladığı maraqlı materiallar Cəlil Məmmədquluzadənin həyat və fəaliyyəti, onun redaktorluğu ilə nəşr olunan "Molla Nəsrəddin" jurnalının yaranması, Azərbaycan ictimai fikrinin formalaşmasındakı xidmətləri, ədəbiyyat, mətbuat tarixindəki rolu, əsas müəllifləri, çoxsaylı müxbirləri və beynəlxalq aləmdə geniş əks-sədaya səbəb olması kimi faktlar barədə zəngin məlumat verir. Tərtibçi salnamənin müqəddiməsində yazır ki, Cəlil Məmmədquluzadənin ədəbi-ictimai fəaliyyəti və onun naşiri olduğu "Molla Nəsrəddin" jurnalı Azərbaycan tarixinin və milli mətbuatın ən parlaq səhifələrindəndir. Ədibin şüurlu həyatının hər ili yeni dövr Azərbaycan mədəniyyətinin əlamətdar, yaddaqalan hadisələri ilə zəngindir. Jurnalın nəşrə başlaması təkcə Azərbaycanda deyil, Yaxın və Orta Şərqin ədəbi-mədəni həyatında mühüm hadisəyə çevrildi. "Molla Nəsrəddin"in hər bir nömrəsinin beynəlxalq mətbuatın diqqət mərkəzində olması orada qaldırılan problemlərin aktuallığı, jurnalın ictimai-siyasi mövqeyi, ideya istiqaməti və xalq həyatı ilə sıx bağlılığından irəli gəlirdi.

Qulam Məmmədli yazır: "Bu kitabın tərtibində dövri mətbuatdan, rəsmi dövlət sənədlərindən, şəxsi məktublardan, ayrı-ayrı adamların xatirələrindən, habelə Mirzə Cəlil və jurnalla bilavasitə əlaqədar olan əsərlərdən istifadə edilmişdir, vaxtilə ədiblə görüşən, onunla birlikdə çalışan və müəyyən hadisələrin canlı şahidi, yaxud iştirakçısı olan şəxslərin yazıları da nəzərə alınmışdır" [4, s.11].

Bununla yanaşı, Həmidə Məmmədquluzadənin "Mirzə Cəlil haqqında xatirələrim" kitabından ədibin yaşayıb yaratdığı mühiti, nəsli, övladları, səfərləri, görkəmli şəxsiyyətlərlə məktublaşmaları və görüşləri də tarixi faktlar əsasında salnamədə əksini tapmışdır. Cəlil Məmmədquluzadənin həyatı, ictimai-mədəni mühiti, ədəbi-mədəni fəaliyyəti haqqında yazılmış və deyilmiş sözlərin, görülmüş tədbirlərin tarixi-xronoloji ardıcıllıqla, böyük salnamə şəklində toplanılması mətbuat, ədəbiyyat, bütövlükdə mədəniyyət tariximiz üçün əhəmiyyətli bir mənbədir.

Azərbaycan salnaməçiliyinin əsasını qoyan bu kitabda görkəmli tədqiqatçı böyük bir mərhələni əhatə etmiş, Cəlil Məmmədquluzadənin zəngin və çoxcəhətli yaradıcılığının geniş panoramını verə bilmişdir. Tədqiqatçı yazıçının hə-

yat və fəaliyyətini, müxtəlif janrlarda qələmə aldığı çoxsaylı əsərləri, xüsusilə müəllifinə şöhrət qazandıran, Üzeyir bəyin təbirincə desək, "baltanı dibindən vuran" "Ölülər" əsərinin müxtəlif məkanlarda, ayrı-ayrı şəhərlərdə tamaşaya qoyulması, səhnə həlli ilə bağlı maraqlı faktları səbir və təmkinlə, zərgər dəqiqliyi ilə araşdırıb fikir süzgəcindən keçirmiş, saysız-hesabsız mənbələrdən, o cümlədən Azərbaycanda, keçmiş ittifaqda və bir çox xarici ölkələrdə çap olunmuş yüzlərlə qəzet, jurnal, kitab, məcmuə və s. məxəzlərdən topladığı zəngin materiallardan yararlanmışdır. Bununla yanaşı, akademiyanın əməkdaşı kimi geniş və çoxşaxəli iş apararaq, müxtəlif muzey və arxivlərdə qorunub saxlanılan, o cümlədən Moskva, Leninqrad (indiki Sankt-Peterburq), Tiflis, Daşkənd, Kazan, Kiyev, Aşqabad, Həştərxan və başqa şəhərlərdən qiymətli, dəyərli əlyazmaları, faktları bir arada təmərküzləşdirərək sanballı salnamə yaratmış və bununla da Azərbaycan ədəbiyyatına, mədəniyyət tariximizə və Mollanəsrəddinşünaslığa böyük töhfə vermişdir. Qulam Məmmədlinin zərgər dəqiqliyi ilə sərf-nəzər etdiyi, özündə əvəzsiz, unikal faktoloji hadisə və materialları ehtiva edən bu ensiklopedik salnamə müəllifin sağlığında iki dəfə – 1966-1984-cü illərdə yüksək tirajla çap olunaraq çoxsaylı oxucuların ixtiyarına verilmişdir. Salnamənin birinci nəşrindən keçən on yeddi il ərzində tədqiqatçı salnamə üzərində ciddi iş aparmış, onu daha da genişləndirmiş, təkmilləşdirmiş, məzmun və ideya baxımından dərinləşdirmiş, əsərin dəyərini və sanbalını artırmışdır. Müəllif gərgin əmək sərf edərək Cəlil Məmmədquluzadənin mətbuatda dərc edilmiş bir neçə əsərini və çap olunmayan orijinal yazılarını da salnamənin təkmilləşdirilmiş ikinci variantına daxil etmişdir. Yeni əlavələr sırasında yazıçının müasirlərinin xatirələri, məktublar, arxiv sənədləri, Cəlil Məmmədquluzadənin tamaşaya qoyulmuş əsərlərinin afişaları və proqramlar da yer almışdır. Salnamədə diqqət çəkən məqamlardan biri də Cəlil Məmmədquluzadənin 20-ci illərdən sonrakı ədəbi və ictimai fəaliyyəti ilə bağlı geniş ictimaiyyətə məlum olmayan fakt və sənədlərin topluya daxil edilməsidir. Əziz Mirəhmədov yazır: "On yeddi il əvvəl Qulam müəllimlə salnamə üzərində redaktor-müəllif işimizin böyük bir hissəsi Cəlil Məmmədquluzadənin "Molla Nəsrəddin" jurnalındakı fəaliyyətini layiqincə, yəni geniş, hərtərəfli və dürüst işıqlandırmaqdan ibarət olmuşdu. Bu sahədəki tədqiqatın, xüsusilə sənədlərin, "Molla Nəsrəddin" redaksiyasına aid arxiv fondunun, epistolyar irsin, habelə biblioqrafik əsərlərin azlığı nəzərə alınarsa, həmin vəzifəni həyata keçirməyin bütün mürəkkəbliyi və çətinliyi aydınlaşar. Ona görə ən başlıca şərt kimi jurnalın bütün nömrələrini başdan-ayağa nəzərdən keçirmək lazım gəldi. Bu işdən əsas məqsəd Cəlil Məmmədquluzadənin "Molla Nəsrəddin" səhifələrindəki irili-xırdalı əsərlərini, yazılarını mümkün qədər müəyyənləşdirib, salnamədə biblioqrafik məlumat halında vermək idi ki, bu da ağır, çoxcəhətli tədqiqat, düşünüb daşınmaq, ciddi diqqət və təmkin tələb edirdi" [6, s.6]. Azərbaycan xalqı öz müstəqilliyini bərpa etdikdən sonra ziyalılarımızın, tədqiqatçılarımızın, gənclərimizin ehtiyaclarının ödənməsi zərurəti yenidən bu qiymətli məxəzin nəşrini gündəmə gətirdi. Məhz buna görə də 2009-cu ildə akademik İsa Həbibbəylinin təşəbbüsü, redaktorluğu, geniş və əhatəli "Ön söz"ü ilə "Molla Nəsrəddin" salnaməsi yeni əlavələr edilib zənginləşdirilərək oxucuların ixtiyarına verildi. Akademik İsa Həbibbəyli Qulam Məmmədlinin yüksək peşəkarlıqla yaratdığı salnamənin əhəmiyyətindən və kitabın yeni nəşrinin spesifik xüsusiyyətlərindən bəhs edərək yazır: "Qulam Məmmədlinin salnaməçilik fəaliyyətində "Cəlil Məmmədquluzadə – "Molla Nəsrəddin" salnaməsi xüsusi yer tutur. Əvvəla, bu əsər Qulam Məmmədlinin birinci irihəcmli, sanballı salnaməsidir. İkincisi, bu onun yeganə salnaməsidir ki, müəllifin sağlığında 1966 və 1984-cü illərdə iki dəfə kitab halında nəşr olunmuşdur. Üçüncüsü, "Cəlil Məmmədquluzadə – "Molla Nəsrəddin" salnaməsi yaradıcılıq aləminə mollanəsrəddinçi kimi qədəm qoymuş Qulam Məmmədlinin Mirzə Cəlil sevdasının salnamə üslubunda parlaq ifadəsidir. Nəhayət, dördüncüsü, "Molla Nəsrəddin" salnaməsi geniş mənada mollanəsrəddinçilərin monumental tale kitabıdır. Salnamənin hazırkı üçüncü nəşri əvvəlki nəşrlərdən zamanın tələbindən doğan keçmiş sovet ideologiyasına dair informasiyalardan "təmizlənərək" oxuculara təqdim olunması ilə fərqlənir. Bu həm də Qulam Məmmədlinin XXI əsrdə çap olunan ilk kitabıdır... Bu nəşr geniş mənada Qulam Məmmədlinin salnamələrinin, o

cümlədən "Cəlil Məmmədquluzadə – Molla Nəsrəddin" salnaməsinin əbədiyaşarlığını, zamanın sınaqlarından çıxa bilmək imkanlarını, bütün dövrlər üçün aktual və müasir olduğunu göstərən düşündürücü və əhəmiyyətli faktdır. Bütövlükdə, çoxcildlik salnamələr hamısı bir yerdə təsəvvür edilə bilməyəcək böyük zəhmətin konkret göstəricisidir. Bu möhtəşəm əsərlər Qulam Məmmədli faktorunun abidəsidir. Qulam Məmmədlinin fədakarlıq nümunəsi olan keşməkeşli həyatı və fəaliyyəti də salnamə – dastandır" [2, s.9-10].

Salnaməçilik sahəsində böyük təcrübə və uğur qazanan Qulam Məmmədli 1967-ci ildə Azərbaycan teatrının inkişafında böyük xidmətləri olan "Hüseyn Ərəblinski" salnaməsini, bundan bir il sonra isə "Cahangir Zeynalov" kitabını yazıb çap etdirmişdir. Böyük yaradıcılıq şövqü ilə yazıb-yaradan Qulam Məmmədlinin Azərbaycan xalqına və mədəniyyətinə verdiyi ən böyük töhfələrdən biri də yüksək peşəkarlığın, gərgin və səmərəli fəaliyyətin nəticəsi kimi ərsəyə gələn iki hissəli "Azərbaycan teatrının salnaməsi" kitabıdır. Əsərin birinci hissəsini 1974, ikinci hissəsini isə 1983-cü ildə nəşr etdirən tədqiqatçı bu çətin, məsuliyyətli və şərəfli işin öhdəsindən ləyaqətlə gəlmişdir.

Qulam Məmmədli sonralar da bir-birinin ardınca Azərbaycan xalqının ictimai-siyasi və ədəbi-mədəni fikir tarixində rol oynayan elm, sənət və ədəbiyyat adamları haqqında səmərəli axtarışlarını uğurla davam etdirmişdir. Bu baxımdan tədqiqatçının Üzeyir bəy Hacıbəylinin həyat və yaradıcılığının geniş panoramasını verən "Üzeyir Hacıbəyov" (1983) salnaməsi görkəmli bəstəkar, yazıçı və publisistin həyat və yaradıcılığını əks etdirən dəyərli bir salnamədir. Xalqına təmənnasız xidmət edən Ü.Hacıbəylinin çoxcəhətli fəaliyyətinin bir istiqaməti də onun "Molla Nəsrəddin" jurnalındakı publisistik fəaliyyəti ilə bağlıdır. O, ədəbi fəaliyyətə publisistika ilə başlamışdır. Dövrün bir sıra mətbuat orqanları ilə yanaşı, Üzeyir bəy Hacıbəyli "Molla Nəsrəddin" jurnalında çoxlu sayda məqalə, felyeton və satirik miniatürlərini dərc etdirmişdir. XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatı və mədəniyyətinin intibah dövrü olduğundan dövrün bir çox böyük şəxsiyyətləri – Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Firidun bəy Köçərli, Üzeyir bəy Hacıbəyli kimi qüdrətli söz adamları məhz bu mərhələdə yaradıcılıqlarının zirvəsinə yüksəlmişlər. Bu ziyalıları birləşdirən Azərbaycan məmləkətini azad, müstəqil və demokratik bir dövlət səviyyəsində görmək istəyi idi. Elə buna görə də onları keçən əsrin əvvəllərində baş verən mühüm ictimai-siyasi, ədəbi-mədəni hadisələrdən kənarda təsəvvür etmək qeyri-mümkün idi. Bu müqəddəs ideal Ü.Hacıbəyli ilə C.Məmmədquluzadəni də bir nöqtədə birləşdirmişdir. Ü.Hacıbəyli 1906-cı ildə C.Məmmədquluzadənin redaktorluğu ilə nəşrə başlayan "Molla Nəsrəddin" jurnalının yazarlarından biri kimi fəaliyyət göstərirdi. "Molla Nəsrəddin" jurnalında "Adı molla, özü bəy Filankəs", "Anaş Qurbağa", "Bala uşaq", "Bızbıza", "Çoban", "Həmişə Kefli", "Xoca Lələ", "Lal uşaq", "Millət tərəfdarı", "Namuslu", "Rəhimsiz", "Yalançı", "Zurnaçı" və s. gizli imzalarla yazdığı publisist əsərləri onu cəsarətli, qorxmaz bir jurnalist kimi məşhurlaşdırmışdır. Ü.Hacıbəylinin publisist yaradıcılığı qəlbən, ruhən, mənən "Molla Nəsrəddin" ədəbi məktəbinə və onun yaradıcılarına çox yaxın idi. Onun ilk satirik mətbuat orqanı kimi geniş şöhrət qazanan "Molla Nəsrəddin" jurnalına böyük rəğbəti vardı. O, 1907-ci ildə "İrşad" qəzetində dərc etdirdiyi bir məqaləsində "Molla Nəsrəddin" jurnalını "haqq söz danışan" bir mətbuat orqanı kimi yüksək dəyərləndirmişdir. Ü.Hacıbəyli xalqın istək və arzularının ifadəçisinə çevrilən "Molla Nəsrəddin" jurnalında qaldırılan ictimai-siyasi, sosial problemlərin həlli istiqamətində görülən işlərdə C.Məmmədquluzadə və bütövlükdə mollanəsrəddinçilərin ideyalarını dəstəkləyirdi. Bu realist-satirik jurnalın üslubundakı sadəlik və aydınlıq, kəskin ifşaedici gülüş, lakonizm, ideya zənginliyi Ü.Hacıbəylinin diqqətini cəlb edirdi. Buna görə də özünün dərin məzmunlu, orijinal publisist yazılarını "Ordan-burdan" başlığı altında "Molla Nəsrəddin" jurnalının səhifələrində dərc etdirməklə bu mətbu orqanın haqq səsinə səs verirdi. O, xalqın qlobal problemlərini jurnalın səhifəsində işıqlandırmaqla mövcud situasiyada çıxış yollarını da göstərirdi. Ü.Hacıbəyli hakim dairələrin dövlət idarəçiliyində yol verdikləri qüsurları, nöqsanları açıq-aşkar söyləməkdən çəkinmirdi. Ü.Hacıbəylinin "Qəzet oxuyan", "Söhbət", "Müəllimlərin keçmiş günlərindən", "Müsəlman intelligentinin məclisi", "Türkiyədə azad-

lıq", "Məclis qurmağın qaydası", "Bir firəng ilə söhbətim", "Qafqaz müsəlmanlarına açıq məktub", "Duma yaxınlaşır", "Hürriyyəti-kəlam", "Müsəlmanların halı", "Dövlət dumasında", "Hökumət və duma", "Müsəlman kəndlisinin siyasi söhbəti", "Stolıpinin xəyalı", "Molla Nəsrəddin", "Müsəlman məclisi", "Bazar söhbəti", "Müəllimlər", "Dilimizi korlayanlar" və s. publisistik yazılarındakı kinayə, eyham, satirik ruh, lakonizm, mətləbi dolayısıyla çatdırma, dərin məna yükü yazıçının "Molla Nəsrəddin" ədəbi məktəbindən bəhrələndiyini göstərən dəyərli nümunələrdir. Qulam Məmmədli salnamədə Üzeyir bəy Hacıbəylinin çoxcəhətli və zəngin yaradıcılığının bütün məqamlarını diqqət mərkəzində saxlaya bilmişdir.

"Molla Nəsrəddin" jurnalındakı yazılar təqiblərdən yaxa qurtarmaq məqsədilə gizli imzalarla dərc olunurdu. Bu imzaların əsl müəlliflərinin araşdırılması mollanəsrəddinşünaslığa layiqli töhfədir. Qulam Məmmədlinin ən böyük xidmətlərindən biri də çox çətin bir işin məsuliyyətini öz üzərinə götürərək "Molla Nəsrəddin" jurnalındakı imzaları toplamaq və sistemləşdirmək olmuşdur. Tədqiqatçının jurnalda əksini tapan dörd mindən artıq imzanı toplayıb aşkarlaması və nəşr etməsi "Molla Nəsrəddin" ədəbi məktəbinin ölməz irsinə, mollanəsrəddinşünaslığa, onun araşdırıcılarına, eləcə də jurnalın yayıldığı geniş arealın oxucularına misilsiz töhfədir. Görkəmli tədqiqatçının böyük zəhməti hesabına ərsəyə gətirdiyi və 1977-ci ildə çapdan çıxan "İmzalar" kitabı sonralar da bu sahədə fəaliyyət göstərən mənbəşünas alimlərimiz üçün zəngin bir məxəz və açar rolunu oynamışdır. Bu baxımdan Elmira Qasımovanın "Cəlil Məmmədquluzadənin "Dəli" imzası haqqında" (EA-nın Xəbərləri, 1978, №3, s.28-31), "Cəlil Məmmədquluzadənin "Lağlağı" imzası haqqında" (Azərbaycan mətnşünaslığı məsələləri. Bakı, Elm, 1979, s.58-62), "Cəlil Məmmədquluzadənin "Molla Nəsrəddin" jurnalında "Mozalan" imzası haqqında" (EA-nın Xəbərləri, 1980, №3, s.33-38), "İmzalar". "Molla Nəsrəddin" (1906-1931), (Afaq Əliyeva ilə birlikdə, Bakı, 2015, 196 s.), "Gizli imza və atribusiya" (Bakı, Avropa, 2017, 296 s)", Azərbaycan satirik mətbuatında gizli imzalar" (1906-1920) (Bakı, Avropa, 2019, 194 s.) və s. araşdırmaları böyük zəhmətin nəticəsi kimi dəyərləndirilməlidir. Bu estafetin uğurlu davamçıları – filologiya üzrə fəlsəfə doktoru, mətnşünas alim Elmira Qasımova və Afaq Əliyeva müəllifə dərin hörmət və ehtiram göstərərək, "İmzalar" kitabına müəyyən imzaları əlavə etməklə kitabın yenidən nəşrinə nail olmuşlar. Elmira Qasımova və Afaq Əliyeva böyük mollanəsrəddinçi tədqiqatçının ənənələrini bu gün də uğurla davam etdirirlər. Bütün bunlar "Molla Nəsrəddin" ədəbi məktəbini və onun nümayəndələrinin jurnaldakı geniş və zəngin fəaliyyətini izləmək və öyrənmək baxımından çağdaş dövrümüzdə də mühüm əhəmiyyət kəsb edir.

Qulam Məmmədlinin müstəsna xidmətlərindən biri də "Cənubi Azərbaycanın Sabiri" adlandırılan, mollanəsrəddinçi şair Mirzə Əli Möcüzün əsərlərini toplayıb çap etdirməsi və elm aləminə tanıtdırmasıdır. "Molla Nəsrəddin" jurnalı 1921-ci ildə Təbrizdə nəşr edilərkən Mirzə Əli Möcüz jurnalda "Kabla Haxverdi" imzası ilə satirik şeirlərini dərc etdirmişdir. Qulam Məmmədli Möcüzü bir şair kimi necə kəşf etdiyini xatırlayaraq yazır: "1942-ci ilin ilk günləri idi. İrandakı Sovet Ordusu sıralarında xidmət edirdim. Təbrizdə Səttarxan xiyabanında zabit yoldaşım Süleyman Rüstəmə rast gəldim. O, əlini qoltuq cibinə saldı, qara cildli bir ümumi dəftər çıxarıb dedi:

– Qulam, bu dəftəri gözdən keçir, gör ağlın nə kəsir. Onu mənə təbrizli ziyalılardan Əli Birəng verib; deyir ki, bu şairin şeirləri sağlığında qadağan olunubmuş.

– Dəftəri alıb tələsik bir-iki şeiri oxudum, xoşuma gəldi. Süleymandan soruşdum:

– Bəs bu şeirlərin müəllifi kimdir? Adını demədilər?

– Adı var. Hərçənd biz onu tanımırıq, amma deyirlər burada o şairi çoxları tanıyır. Mirzə Əli Möcüz!

Ad mənə də tanış deyildi. Dəftəri işlədiyim "Vətən yolunda" adlı qızıl əsgər qəzeti redaksiyasına gətirib diqqətlə oxumağa başladım. Şeirlərin məzmunu, üslubu, dili ilə tanış oldum və gördüm ki, Möcüz doğrudan da möcüzə imiş. Şah zülmünün, istibdadın, mütləqiyyətin, dini xurafat və cəhalətin hakim olduğu bir ölkədə belə şeirlər yazmaq təkcə möcüzə deyil, eyni zamanda qəhrəmanlıq idi. Fikrimi Süleymana bildirdim. O da mənə dedi: Bəs elə isə məşğul ol! Məşğul oldum. Şair haqqında 1942-ci il fev-

ralın 25-də "Vətən yolunda" qəzetində "Mirzə Əli Möcüz" başlıqlı ilk məqaləmi dərc etdirdim. Bu, mətbuatımızda Möcüzün adı çəkilən ilk yazı idi. Məqalənin yanında şairin bir-iki şeirini də çap etmişdik. Oxucular bu hadisədən çox razı qaldılar; yerli əhalidən bir neçə nəfəri Möcüzün şeirlərini gətirib mənə verdi və onlardan da istifadə etməyi arzuladı" [5, s.13-14]. Görkəmli salnaməçi "Molla Nəsrəddin" ədəbi məktəbinin digər üzvləri, jurnalda maraqlı satirik şeirləri və publisistik yazıları ilə çıxış edən, Azərbaycan ədəbiyyatına və ədəbiyyatşünaslığımıza böyük töhfələr verən Salman Mümtaz və Sabit Manafzadə kimi mollanəsrəddinçilərin yaradıcılığına aid də maraqlı faktoloji materiallar toplamışdır.

### Nəticə / *Conclusion*

Azərbaycan ədəbiyyatına, mollanəsrəddinşünaslığa və milli mətbuatımıza misilsiz və təmənnasız xidmət göstərən unudulmaz insan, cəfakeş tədqiqatçı Qulam Məmmədli fundamental salnamələr müəllifi kimi öz adını da xalqımızın tarixi salnaməsinə əbədi yazmışdır.

### Ədəbiyyat / *References*


1. Ağayev, N. Mətbuat tariximizə dair qeydlər dəftəri. – AMEA Nizami adına Ədəbiyyat İnstitutunun elmi arxivi, inv. № 655, 1944.
2. Həbibbəyli, İ. Qulam Məmmədli faktoru (ön söz). Qulam Məmmədli. "Molla Nəsrəddin" (salnamə). – Naxçıvan: Əcəmi, 2009. – 518 s.
3. Məhəmmədzadə, M. Azərbaycan türk mətbuatı (ərəb əlifbasından çevirib tərtib edən, ön söz, lüğət və qeydlərin müəllifi filologiya elmləri doktoru Alxan Bayramoğlu). – Bakı, 2004.
4. Məmmədli, Q. "Molla Nəsrəddin" (Salnamə) (tərtib edən, ön söz və izahların müəllifi: İsa Həbibbəyli). – Naxçıvan: Əcəmi, 2009. – 518 s.
5. Məmmədli, Q. Mirzə Əli Möcüz. Əsərləri. – Bakı: Yazıçı, 1982. – 350 s.
6. Mirəhmədov, Ə. Redaktordan. Molla Nəsrəddin (salnamə). – Bakı: Gənclik, 1984. – 520 s.
7. Qasımova, E., Əliyeva, A. İmzalar. "Molla Nəsrəddin" (1906-1931). – Bakı: Avropa, 2015. – 198 s.
8. Paşayeva, M. "Molla Nəsrəddin" jurnalının iştirakçıları. Azərbaycan EA Respublika Əlyazmalar İnstitutunun "Əsərləri", II c.1963. – s.126-129.
9. Rüstəmli, A. Qulam Məmmədli. "Molla Nəsrəddin" ensiklopediyası. – Bakı: Elm, 2020. – 466 s.


## Гулам Мамедли и журнал «Молла Насреддин»


**Гюльбениз Бабаева**
Доктор философии по филологии, доцент
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: gulbeniz-babayeva@mail.ru



**Резюме.** В статье исследуется публицистическая деятельность Гулама Мамедли, учёного-хрониста, журналиста, театроведа и публициста. Гулам Мамедли вошел в историю литературной мысли азербайджанского народа как учёный-публицист. Предметом исследования стала статья «Молла Насреддин», написанная на основе материалов и исторических документов, собранных им в результате долгих лет плодотворных и интенсивных исследований и созданная с огромным трудом и глубокой ответственностью. В статье дана ценная информация об интересных материалах, собранных из 192 источников – жизни и деятельности

Джалила Мамедгулизаде, заслугах в формировании общественного мнения Азербайджана, создании издаваемого им журнала, его роли в литературе, истории прессы, ее основных авторах, многочисленных репортажах и международного признания. Помимо этого, в статье говорится о таких обширных и фундаментальных исследованиях, как «Гусейн Араблинский» (1967, 292 с.), «Джахангир Зейналов» (1968, 172 с.), «Хроника азербайджанского театра» (Первая ч. 1974, 584 с., часть вторая, 1983. 300 с.), «Джавид на протяжении всей жизни» (1982, 298 с.), «Узеир Гаджибеков» (1983, 550 с.), «Аббас Мирза Шарифзаде» (1985, 242 с.), «Нариман Нариманов» (1987, 358 с.), созданных Гуламом Мамедли о личностях и их деятельности, внесших большой вклад в развитие азербайджанской литературы и культуры.

**Ключевые слова:** Журнал «Молла Насреддин», Гулам Мамедли, Джалил Мамедгулузаде, Мирзали Моджуз, Узеир бек Гаджибейли, Азиз Мирахмедов, Иса Габиббейли, хроника, псеавдоним